# Ağdamda ECO-nun Gənclər Forumu keçirilib

**İyulun 1-də Ağdam rayonunda İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) Həftəsi çərçivəsində ECO-nun Gənclər Forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, forumun məqsədi ECO ölkələrindən olan gəncləri regional dialoqa cəlb etmək, müvafiq məsələlərin həll yollarını təklif etmək və tövsiyələr toplusunu təqdim etməklə qərarların qəbuluna təsir göstərməkdən ibarət olub.

Forumda təşkilata üzv olan 9 dövlətdən 50-yə yaxın gənc, dövlət orqanlarının nümayəndələri, ECO rəsmiləri və ekspertlər iştirak ediblər.

Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov Qarabağda ilk dəfə Gənclər Forumunun təşkil edildiyini və belə tədbirlərin Azərbaycanda güclü gənclər siyasətinin mövcudluğunun göstəricisi olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin gənclərə xüsusi diqqət və qayğı ilə yanaşdığını qeyd edən nazir bildirib: "Ölkə üzrə 35 gənclər evi, 100-lərlə gənclər təşkilatları, fondları və mərkəzləri fəaliyyət göstərir. Biz, həmçinin beynəlxalq tədbirlər təşkil edirik. Ümidvaram ki, bu tədbirin yekununda gənclər siyasətinə aid olan yaxşı sənədə imza atılacaq".

ECO-nun Baş katibi Əsəd Məcid Xan ECO regionunun öz mədəniyyətləri, müxtəlifliyi, iqtisadiyyatları, cəmiyyətləri ilə fərqləndiyini, üzv ölkələrdə olan əhalinin 60 faizinin məhz gənclərdən ibarət olduğunu bildirib. Onun sözlərinə görə, yaxşı təhsilə malik olan gənclər dayanıqlılığı, inkişafı və regional artımı irəliyə aparacaq bir gücə çevriləcək: "Dünyanın müxtəlif yerlərində çağırışlar üzə çıxır. Bu regionda gənclər öz sözlərini deməlidirlər. Demək olar ki, bütün dünya üzrə gənclərin 30 faizi məşğuliyyətlə, həmçinin əmək bazarına çıxışla bağlı problemlərlə üzləşir. Gənclərə bu gün müəyyən bacarıqlar formalaşdırmaq imkanı yaradılmalıdır. Əlbəttə ki, yeni iş yerləri haqqında danışırıqsa, texniki bacarıqlar, bilik və savad çox vacibdir. Çünki biz yeni gələcək iqtisadiyyat haqqında danışırıq. Həmçinin ECO regionunda gənc qadınlar məşğulluq baxımından böyük məhrumiyyətlərlə üzləşirlər. Siyasi mübarizə, münaqişələr səngimir ki, bu da qeyri-mütənasib şəkildə gənclərə təsir göstərir, yoxsulluğu daha da kəskinləşdirir və daha çox gərginliyə yol açır. Lakin ölkələrimiz arasında tarix və dəyərlər baxımından çox oxşarlıqlar var. Biz istənilən imkandan istifadə etməliyik ki, bir-birimizi daha çox tanıyaq, körpülər salaq, öyrənək, təcrübə mübadiləsi aparaq. Bu da əslində, bizim planlarımızın bir hissəsidir və gələcəyə doğru yatırılan sərmayədir".

Daha sonra Gənclər Forumu çərçivəsində "Yüksəksəviyyəli perspektivlər: Regional inkişafda gənclərin rolu" mövzusunda plenar panel, "Ölkə müdaxilələri: Gənclərin milli strategiyalarının davamlı inkişafa töhfəsinin qiymətləndirilməsi üzrə Milli Perspektivlər" mövzusunda panel sessiya keçirilib.

Panel müzakirələrin sonunda isə gənclər tərəfindən İşçi qruplar yaradılıb və üç istiqamətdə - iqtisadi və ticari əməkdaşlıq, davamlılıq və texnologiya, insan inkişafı və insanlar arasında dialoq məsələləri ətrafında müzakirələr aparılıb.

Azərbaycan.-2025.- 2 iyul (№ 132).- S.4.